***Qərənfil***

Göylərdən Bakıya gül yağıb nədir?
Hər tərəf qırmızı qan rəngindədir.
Yoxsa şəhidlərin keşiyindədir,
Niyə ağlayırsan al-qan, qərənfil?

Toylar yaraşığı, evlər bəzəyi,
Sevən oğlanların eşqi-əzəli.
Yerə sərilmisən, ay el gözəli,
Yoxsa ki, yağmısan leysan, qərənfil?

Odun şəhidlərə hamıdan yaxın,
Gəzirsən əllərdə hey axın-axın.
Sən öz qan rənginlə deyirsən, baxın!
Şəhidlər zülümə üsyan Qərənfil!

Abşeron torpağı bitirdi səni,
Allah şəhidlərə yetirdi səni,
Sevib-sevilənlər itirdi səni,
İndi sən olmusan ehsan Qərənfil!

Əliyev O. Qərənfil : şeir // Savalan. - 2007. - 19-22 yanvar. - S.1.